# Tokio Universiteti

**Yerləşir:** Yaponiya, Tokio şəhəri
**Yaranma tarixi:** 1877-ci il
**Tipi:** Dövlət
**Akademik heyət:** 5779 nəfər
**Tələbələrin ümumi sayı:** 28133 nəfər
**Rəsmi saytı:** www.u-tokyo.ac.jp.

Tokio Universiteti (University of Tokyo) dünyanın ən nüfuzlu elmi-tədqiqat mərkəzlərindən biridir və Yaponiyanın paytaxtı Tokio şəhərində yerləşir. Böyük Britaniyanın "The Times Higher Education World Reputation Rankings" jurnalının 2016-cı il üzrə reytinq sıralamasında 12-ci, "QS World Universities Rankings" jurnalının 2015-2016-cı tədris ili üzrə apardığı dünya universitetlərinin reytinqinə əsasən 100 ən yaxşı ali məktəb arasında 39-cu, Asiya qitəsinin, eləcə də Yaponiyanın milli universitetlərinin reytinqində isə 1-ci yerdədir.





Universitetin kimya laboratoriyasında



Universitetin mərkəzi kitabxanası



Universitetin 2016-cı il məzunları

## Tarixi

1877-ci ildə Yaponiyanın Meydzi sülaləsi Hüquq, Elm, Ədəbiyyat və Tibb departamentlərindən ibarət olan universitet yaradır. Bu ali təhsil ocağına Tokio Dayqaku ( Tokio Universiteti), qısa olaraq Todai adı verilir. 1886-cı ildə ali məktəbin adı dəyişdirilərək İmperial Universiteti, 1897-ci ildə isə Tokio İmperial Universiteti adlandırılır. 1890-cı ildə universitetin nəzdində Kənd Təsərrüfatı və Dendrologiya kolleci, 1916-cı ildə Added İnfeksion Xəstəliklər İnstitutu istifadəyə verilir. 1919-cu ildə imperatorun sərəncamı ilə təhsil müəssisəsində iqtisadiyyat fakültəsi açılır. 1921-ci ildə burada Aviasiya Elmi-Tədqiqat İnstitutu və Astronomiya rəsədxanası, 1942-ci ildə mühəndislik fakültəsi, 1946-cı ildə universitet xəstəxanaları, dəniz bioloji stansiyası, botanika bağı, universitet meşəsi, kənd təsərrüfatı mərkəzi, Balıqçılıq mühəndisliyi tədqiqatları laboratoriyası, İctimai Elmlər İnstitutu yaradılır. 1947-ci ildə Yaponiyanın II Dünya müharibəsində məğlubiyyətindən sonra universitetin ilkin adı özünə qaytarılır. 1949-cu ildə burada pedaqogika fakültəsinin nəzdində filologiya fakültəsi, Zəlzələ Elmi-Tədqiqat, Şərqşünaslıq Mədəniyyəti, Sənaye, Jurnalistika institutları açılır. 1953-cü ildə Tokio Universitetində Kosmik Rey Tətbiqi Mikrobiologiya laboratoriyası, 1955-ci ildə Nüvə Tədqiqatları, 1957-ci ildə Bərk Cisimlər Fizikası, 1962-ci ildə Okeanın Tədqiqatı, 1966-cı ildə kompüter və tibb mərkəzləri, 1967-ci ildə Kriogen Mərkəz yaradılır, İnfeksion Xəstəliklər İnstitutunun adı dəyişdirilərək Tibb Elmləri İnstitutu olur. 1970-ci ildə Tokio Universitetində Radioizotop, 1975-ci ildə Ətraf Mühit Elmləri mərkəzləri, 1981-ci ildə Kosmik Tədqiqatlar və Aeronavtika, Fənlərarası Tədqiqatlar institutları, 1983-cü ildə molekulyar genetika laboratoriyası yaradılır, Kitabxana və İnformasiya Elmi-Tədqiqat Mərkəzinin adı Biblioqrafik İnformasiya Mərkəzi adı ilə əvəzlənir. 1985-ci ildə əcnəbi tələbələr üçün Yapon Dili Mərkəzi fəaliyyətə başlayır və bu qurum 1990-cı ildən Beynəlxalq Mərkəz adlandırılır. 1991-ci ildə universitetin nəzdində İqlimin Tədqiqatı Mərkəzi açılır, 1992-ci ildə isə riyaziyyat elmləri bölməsi müstəqil fəaliyyət göstərməyə başlayır, həmçinin Artefaktların öyrənilməsi Mərkəzi yaradılır. 1993-cü ildə Tətbiqi Mikrobiologiya İnstitutunun adı dəyişdirilərək Molekulyar və Hüceyrə Bioelmlər İnstitutu olur, daha sonra Biotexnologiya Tədqiqat Mərkəzi fəaliyyətə başlayır. 1994-cü ildə Elementar Hissəciklər Fizikası Beynəlxalq Mərkəzi, 1996-cı ildə Tədqiqatlar və Ali Təhsilin İnkişafı Mərkəzi, 1998-ci ildə Qabaqcıl Texnologiyalar Ali Məktəbi, Komaba Açıq Laboratoriyası, Geinformasiya Elmi Mərkəzi, 1999-cu ildə İqtisadi Mühəndislik, Yüksək Plazma Temperaturu mərkəzləri açılır, Kompüter Mərkəzinin adı İnformasiya Texnologiyaları Mərkəzi ilə əvəz edilir. 2000-ci ildə Tokio Universitetində tibbi təhsil sahəsi üzrə Beynəlxalq Tədqiqat Mərkəzi, Kasiva kampusunda Kosmik Şüa Tədqiqatı İnstitutu yaradılır. 2001-ci ildə Sənaye Elmləri İnstitutu Komaba kampusuna köçürülür. 2004-cü ildə Yaponiyanın bütün dövlət universitetləri "Milli Universitetlər Korporasiyası" adı altında birləşdirilir, Tokio Universiteti də bu korporasiyaya daxil edilir. Həmin il Ali Dövlət Siyasəti Məktəbi yaradılır. 2005-ci ildə Pekin şəhərində Tokio Universitetinin filialı açılır.

## Universitet bu gün

Yaponiya dünyanın ən inkişaf etmiş ölkələrindən biridir. "Gündoğar ölkə" adlandırılan Yaponiyanın qədim tarixə, zəngin mədəniyyətə malik olması, yapon texnologiyasının keyfiyyəti, Yaponiya elminin sürətli inkişafı hər kəsə məlumdur. Bu baxımdan, Yaponiyanın ali təhsil müəssisələrində, xüsusilə dünya universitetləri reytinqində ön sıralarda yer alan Tokio Universitetində təhsil almaq, bu qədim ölkənin əvəzolunmaz təcrübəsindən bəhrələnmək böyük əhəmiyyətə malikdir.

Tokio Universitetinin nəzdində Hüquq, Tibb, Mühəndislik, Filologiya, Dəqiq elmlər, Kənd təsərrüfatı, İqtisadiyyat, İncəsənət və elmlər, Pedaqogika, Əczaçılıq fakültələri, Humanitar və Sosiologiya Elmləri, Təhsil, Hüquq və Siyasi Elmlər, İqtisadiyyat, İncəsənət və Elmlər, Mühəndislik, Elm, Kənd təsərrüfatı və Həyat, Tibb, Əczaçılıq, Riyaziyyat Elmləri, Qabaqcıl Texnologiyalar, İnformasiya Texnologiyaları, Fənlərarası İnformasiya Tədqiqatları, Dövlət Siyasəti ali məktəbləri, Tibb Elmləri, Zəlzələ Elmi-Tədqiqat, Asiya Regionu üzrə Perspektiv Tədqiqatlar, Sosial, Sənaye Elmləri, Tarixşünaslıq, Molekulyar və Hüceyrə Bioelmlər, Kosmik Şüa Tədqiqatı, Bərk Cisimlər Fizikası, Okeanın Tədqiqatı, Qabaqcıl Elm və Texnika Tədqiqat institutları vardır. Ali məktəbdə həmçinin Universitet Muzeyi, Kriogen Tədqiqatlar, Radioizotop, Ətraf Mühit Elmləri, Beynəlxalq, Artefaktların öyrənilməsi, Biotexnologiya-Tədqiqat, Asiya Təbiəti, Beynəlxalq Tədqiqatlar üzrə Əməkdaşlıq, Komaba Açıq Laboratoriyası, Geinformasiya Elmi, Beynəlxalq Tibbi Təhsil, Səhiyyə, İnformasiya Texnologiyaları, İqlimin Tədqiqatı, Beynəlxalq Elementar Hissəciklər Fizikası, VLSI Planlaşdırılma və Təhsil, İntellektual Modelləşdirmə Laboratoriyası mərkəzləri, Elmin Sabit İnkişafı üzrə Kompleks Tədqiqatlar, Nano Kvant Elektronikası İnformasiya İnstitutu, Kimya-Biologiya Elmi-Tədqiqat Təşəbbüsü, Bilik Quruluşu Mərkəzi, Okean Alyansı, Kainat Fizikası və Riyaziyyatı, Todai Alternativ Siyasət Tədqiqat, Mütərəqqi Tədqiqat Təşəbbüsü təşkilatları fəaliyyət göstərir.

Universitetin ən populyar və tələb olunan fakültələri hüquq və filologiyadır. Tokio Universitetinin kitabxana sistemi Əsas, Kaşiva, Komaba, eləcə də 34 bölmə və institut kitabxanalarından ibarətdir. Hər fakültənin, institutun, mərkəzin nəzdində öz sahəsi üzrə kitabxanası mövcuddur. Üç müxtəlif şəhərcikdə - Honqo, Kaşiva, Komaba kampuslarında və kampusdan kənarda yerləşən bu kitabxanalar yeganə bir sistem çərçivəsində geniş spektrdə xidmət təklif edir. Kitabxana sistemində, ümumilikdə, 8,8 milyon cild kitab, jurnal, dissertasiya və s. mövcuddur. Bu rəqəmin üzərinə hər il 170 min kitab, 152 min dövri nəşr artırılır. Universitetin həmçinin OPAC (Online Public Access Catalog) adlanan ümumi onlayn kataloq səhifəsi mövcuddur. Tokio Universitetinin kitabxana sisteminin əksər kolleksiyaları bu kataloqda dərc edilib və oxucular həmin səhifəyə daxil olaraq istədikləri materialı tapa bilərlər.

Tokio Universitetinin muzeyi 1966-cı ildə yaradılıb və Yaponiyanın ən aparıcı muzeylərindəndir. Muzeydə təbii, mədəni və tarixi materiallar toplanıb, sistemləşdirilib və hamı üçün açıqdır. Universitet 6400000 tədqiqat obyektinə malikdir, onlardan 2430000-i universitetin muzeyində yerləşir. Muzey 8,8 hektar ərazidə yerləşir, onun kolleksiyası yerli və xarici mənbələr hesabına mütəmadi olaraq yenilənir. Tokio Universitetinin muzeyi bir neçə bölmədən ibarətdir. Yer elmləri departamentində mineralogiya, petrologiya, faydalı qazıntılar, tarixi geologiya, paleontologiya, coğrafiya, Biologiya departamentində botanika, meşə botanikası, zoologiya, tibb, antropologiya, Mədəniyyətin tarixi departamentində arxeologiya, memarlıq, mədəni antropologiya və təsviri incəsənət tarixi, Radiokarbon laboratoriyasında arxeologiya, tarix, geologiya elmlərinə aid, Kurator tədqiqatları departamentində elmi-tədqiqat materialları toplanıb. Muzeyin Texnologiya departamenti 2002-ci ildə yaradılıb və "beyin mərkəzi" kooperativi kimi nəzərdə tutulub. Media elmləri və informasiya departamenti muzeydə toplanan elmi informasiyanı ictimaiyyətə çatdırmaqla məşğuldur (Public Relations). Koişikava adlanan muzeyin əlavə binası universitetin Botanika bağının yanında yerləşir. Burada sərgilər təşkil olunur, tədqiqatçıların və geniş ictimaiyyətin istifadəsinə zəngin verilənlər bazası təqdim edilir.

Tokio Universitetinin Honqo, Komaba, Kasiva, Şirokane və Nakano adlanan beş kampusu mövcuddur. Universitetin əsas kampusu Honqo adlanır və Maeda mülkədar ailəsinin malikanəsində yerləşir. Bu, Yaponiyanın ən qədim malikanələrindən biridir, xüsusilə burada yerləşən Akamon (Qırmızı qapı) ölkənin tarixi abidəsidir. Honqonun mərkəzi 1615-ci ilə aiddir. Həmçinin bura Yaponiyanın ən gözəl yerlərindən biri hesab edilir. Komaba kampusu universitet tələbələrinin məskunlaşdığı ən sıx şəhərcikdir. Bütün başqa universitetlərdə olduğu kimi, Tokio Universitetində də tələbələr yataqxanalarla təmin olunur. Əcnəbi tələbələrin məskunlaşması üçün Mitaka, Toşima, Lodge Komaba, Şirokanedai adlı beynəlxalq yataqxanalar mövcuddur. Bu yataqxanalarda bir nəfərlik yerin illik qiyməti 4700 - 5900 yen təşkil edir. "Şirokane 1" qızlar yataqxanası köhnə və yaşamaq üçün əlverişsiz olduğundan 2007-ci ildə Toşima Beynəlxalq yataqxanasında qızlar üçün yeni mənzillər tikilib. 2009-cu ilin oktyabrında Kasiva Lodge və Kasiva II Beynəlxalq yataqxana kampusu istifadəyə verilib. Tələbələr universitetə yataqxanada məskunlaşmaları haqqında ərizə ilə ildə iki dəfə müraciət edə bilərlər - birinci dəfə yanvarda, ikinci dəfə isə iyulda. Ərizəni tələbə oxuduğu fakültə və ya məktəb vasitəsilə göndərməlidir. Universitetdə əsasən oğlanlar yataqxanalarla daha yaxşı təmin edilir, qızlar və uşaqlı ailələr isə bu cəhətdən bir qədər əziyyət çəkirlər. Burada tələbələrin istifadəsinə kirayə mənzillər verilir, kənardan olan əməkdaşlar da mənzillərlə təmin edilirlər.

Tokio Universitetində milliyyətindən asılı olmayaraq istedadlı tələbəyə əlverişli şərait yaradılır, maddi yardım göstərilir. Müxtəlif fondlar əcnəbi tələbələr üçün təqaüdlər ayırır. Hazırda Tokio Universitetində 28133 tələbə təhsil alır. Burada dünyanın 100 ölkəsindən 2912 tələbə var. Əcnəbi tələbələr universitetdə ingilis dilində təhsil alır, bununla yanaşı, onlara yapon dili də öyrədilir. Tokio Universitetində 5779 işçi heyəti çalışır. Universitetin dünyanın 47 ölkəsində 200-dən artıq təşkilatla əməkdaşlıq müqaviləsi var. 2015-ci ildən universitetin prezidenti Makoto Gonokamidir.

## Büdcəsi və təhsil haqqı

2014-2015-ci il tədris ilinə olan məlumata görə, ali məktəbin illik gəlirləri 1 milyard 859 milyon dollar (2 milyard 234 milyon yen), xərcləri 1 milyard 860 milyard dollar (2 milyard 235 milyon yen) təşkil edir. Ali məktəbin illik büdcəsi 2015-ci ildə təxminən 2.5 milyard Amerika dolları olub. Bu məbləğin 66%-ni dövlət tərəfindən ayrılan vəsaitlər təşkil edib. Daxili imkanlar hesabına (əsasən, tələbələrin təhsil haqqından) universitetin əldə etdiyi gəlirlər 1357736000 yen olub. Büdcə vəsaitinin böyük hissəsi, təxminən, 60%-i universitetin elmi potensialının artırılmasına və elmi-tədqiqatların aparılmasına sərf edilib. Tokio Universitetində təhsil haqqı tələbənin oxuduğu məktəbdən, seçdiyi ixtisasdan asılı olaraq təxminən 600000-800000 yen arasında dəyişir. Yaponiya Tələbə Xidməti Təşkilatı (JASSO) Yaponiya universitetlərində təhsil alan əcnəbi tələbələrə təqaüdlər təklif edir. JASSO-nun Tokio Universitetində bakalavrlar üçün ayırdığı təqaüdün ("scholarship") məbləği ayda 48000 yen, magistr və doktorantlar üçün isə 65000 yen təşkil edir. Universitetlər iyun ayının əvvəllərində JASSO-ya müraciət edir. JASSO komissiyası tərəfindən seçim turu aparılır və müsabiqədən müvəffəqiyyətlə keçmiş tələbələr haqqında məlumat universitetlərə iyul ayının əvvəllərində verilir. Tokio Universiteti Fondu da tələbələrə təqaüd ayırır. Fondun verdiyi təqaüdün məbləği ayda 50000 yendir.

Tokio Universitetinə qəbul üçün abituriyentlər icbari qaydada vahid ümummilli imtahanlar verməlidir. Hər bir abituriyentin yapon dilini kifayət səviyyədə bilməsini təsdiq edən xüsusi sənədi olmalıdır. Bakalavr proqramına daxil olmaq istəyənlər 12 illik tam orta təhsilə dair sənəd təqdim etməlidir. Universitetdə tədris ili aprelin 1-dən martın 31-ə kimi davam edir. Bütün əcnəbi tələbələr yapon dilindən esse yazmalı və onun fənn biliklərinə dair testdən keçməlidirlər. Dillə bağlı problemləri aradan qaldırmaq üçün universitet nəzdində yaradılmış xüsusi kurslardan keçmək olar.

## Universitetin məşhur məzunları

Tokio Universitetinin məzunları arasında Yaponiyanın 15 baş naziri var. Məzunlardan Yaponiyanın taclı şahzadəsi Masako Ovadanın, sabiq baş nazirlər Yukio Hatoyama, Kiiçi Miyazava (1991-1993), Yasuhiro Nakasone (1982-1987), Eisaku Sato, Nobel mükafatı laureatı (1964-1972), Nobusuke Kişi (1957-1960), İçiro Hatoyama (1954-1956), Şiqeru Yoşida (1948-1954), Tetsu Katayama (1947-1948), Kijuro Şidehara (1945-1946), Kiiçiro Hiranumo (1939), Koki Hirota (1936-1937), Osaçi Hamaquçi (1929-1931), Reijiro Vakatsuki (1926-1927, 1931), Takaaki Kato (1924-1926), Takaşi Hara (1918-1921), Hakuo Yanagisava (Yaponiyanın sabiq səhiyyə naziri), fizika üzrə Nobel mükafatı laureatları Leo Esaki, Masatoşi Koşiba, Yaiçiro Nambu, ədəbiyyat üzrə Nobel mükafatı laureatları Yanusari Kavabata, Kenzaburo Oe, məşhur yapon yazıçıları Rünoske Akutaqava, Kobo Abenin adlarını çəkmək olar. Tokio Universiteti elmi-tədris, eləcə də innovativ fəaliyyəti ilə Yaponiya ali məktəbləri arasında liderdir. Universitet alimlərinin, aspirant və tələbələrin ixtira və kəşfləri ölkənin «Panasonic» (Matsushita Electric Industrial Co., Ltd), "NEC Corporation", "NISSAN Motor Co., LTD", "HITACHI", "FUJITSU" və digər ən nüfuzlu şirkətləri tərəfindən tələbolunandır. Bu isə özünü ali məktəbin maliyyələşdirilməsində göstərir. Ali məktəbin büdcəsinin yarıdan çoxunu müəyyən tədqiqatların aparılması üçün müxtəlif şirkətlərlə bağlanmış müqavilə və qrantlardan, xeyriyyə yardımlarından əldə olunan vəsaitlər təşkil edir. Tokio Universitetində Nobel mükafatı üzrə xüsusi texniki şöbə yaradılıb. Hökumət alimlərin elmi kəşflərə imza atacağı və ali elmi mükafata layiq görüləcəyi ümidi ilə hər il bu şöbəyə vəsait ayırır.

**Oruc MUSTAFAYEV,**
*"Azərbaycan müəllimi"*